Layihə
Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir.

RİİB Regional İnkişaf İctimai Birliyi



# Aylıq Bülleten

Avqust 2020

## ÖYRƏNMƏDƏ NİZAM-İNTİZAM QAYDALARI

Nizam-intizam qaydaları bəzən yalnış şəkildə istifadə olunaraq bir çoxları tərəfindən cəza kimi başa düşülür. Bir çox müəllimlərə görə isə nizam-intizam qaydaları cəzalandırma deməkdir. “Bu uşağın nizam-intizama ehtiyacı var” ifadəsi “Bu uşaq vurulmalı və döyülməlidir” kimi tərcümə olunur. Bu, çox yanlışdır. Nizam-intizam dedikdə insanlara uzun və qısa müddət ərzində qaydalara riayət etməsini öyrətmək və davranış qaydalarını aşılamaq üçün bir təcrübə vasitəsi nəzərdə tutulur.

Cəzanın məqsədi uşaqların davranışlarını nəzarətdə saxlamaq, nizam-intizam qaydalarının məqsədi isə onların davranışlarını müsbət istiqamətdə dəyişməkdir. Bunun məqsədi şagirdlərdə özünəinamı artırmaq və bizim onlardan nəyi öyrənmələrini istəməyimiz və onların nəyi öyrənməyə qadir olduqlarına daha çox diqqət yetirməkdir. Bu isə uşaqlarda yönləndirmənin əsasını təşkil etməklə yanaşı onların necə başqaları ilə yaxşı münasibətdə olmalarına kömək edir. Nizam-intizamın əsas məqsədi uşaqların öz davranışlarını başa düşməsi, öz seçimlərinə qarşı məsuliyyət daşıması, özünə və başqalarına qarşı hörmət etməsidir. Bir başqa sözlə, onların müsbət düşünmə və davranışı mənimsəməsi bir ömür boyu davam edə bilər. Məsələn, siz nizam-intizamlı bir insan düşündüyünüz zaman nə fikirləşirsiniz? Siqaret çəkmək kimi pis bir vərdişini tərgitmiş olan bir Olimpiada gimnastı xaosun içində sakit qalmağı bacarır. Bunların hər biri elə məhz nizam-intizamın əsas məqsədlərindən biri olan özünü idarəetmə bacarığını göstərir. Nizam-intizam uşaqlara özünü bir neçə şəkildə göstərməklə birlikdə, onları cəsarətli bir şəkildə özlərini idarə etməyə sövq edir. Eyni zamanda davranışlarının ağrılı deyil, daha mənasız nəticələrinin olduğunu göstərir. Əgər siz valideynsinizsə və ya dostlarınızın övladı varsa, onların bir və ya iki yaşında olduğu zamanı düşünün. Onlara əl çalmaq, yerimək və danışmaq necə öyrədilirdi? Siz və ya dostunuz onlara qışqırmaqla, təhqir etməklə, hədələməklə deyil, əksinə misallar göstərməklə, tərifləməklə uşaqları daha çox məşq etməyə cəsarətləndirirdiniz. Bu növ cəsarətləndir-mə isə uşaqların çalışmasında, öyrənməsində və daha uğurlu addımlar atmasında bir mükafat rolunu oynayır. Bu isə şagirdlərdə özünəinamın təməlini qoymuş olur.

Beləliklə, uşaq artıq təriflənmək və mükafat qazan-maq üçün daha çox məsuliyyət daşıyır. Uşaqlar özləri artıq qazanıb-qazanmamağı seçə bilərlər. Bu isə onlarda öz həyatlarını idarəetmə bacarığı olması hissini yaşadır və həmçinin bu proseslər sağlam bir özünəinamın ən başlıca vasitəsidir. Eyni şəkildə, siz uşaqların davranış pozuntuları zamanı sakit qalmaqla, onlara qarşı xüsusi diqqət yetirməməklə və dərsə gec gəlməklə onları bu davranışları təkrarlamağa cəsarətləndir-məyəcəkiniz. Bu isə zamanla onların davranış pozuntusu ilə diqqəti cəlb edə bilməyəcəklərini anlamalarına gətirib çıxardacaqdır.

Bületen Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə “Regional İnkişaf” İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

Layihə
Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir.



# SİNİFDƏ POZİTİV NİZAM-İNTİZAM QAYDALARININ TƏTBİQİ

Sosial qayda və qanunları başa düşmələri üçün uşaqlara pozitiv nizam-intizam qaydalarını öyrətmək və aşılamaq lazımdır. Lakin bunun üçün şagirdin vurulması və ya başqa şəkildə təhqir edilməsi vacib deyil və bu üsullar uşağa xələl gətirə bilər. Tədqiqatlar sübut edir ki, uşaqlar şifahi, fiziki və emosional təhqirlərə deyil, pozitiv münasibətə - qarşılıqlı hörmət, müzakirə və mükafatlandırmaya daha yaxşı reaksiya verirlər.

Uşağın pozitiv nizam-intizamı üçün yeddi prinsip

1. Uşağın ləyaqət hissinə hörmətlə yanaşın;
2. Cəmiyyətin maraqlarına uyğun davranış, şəxsi nizam-intizam və xarakter formalaşdırın;
3. Uşağın aktiv inkişafını optimallaşdırın;
4. Uşağın inkişaf ehtiyacları və həyat keyfiyyətinə hörmətlə yanaşın;
5. Uşağın motivasiyası və həyata baxışına hörmət edin;
6. Düzgünlük (bərabərlik və qeyri-diskriminasiya) və ədaləti təmin edin;
7. Həmrəyliyi təbliğ edin

Mənbə: Power, F.Clark və Hart, Stuart N. "Konstruktiv uşaq nizam-intizamına doğru addımlar": Hart,Stuart N (ed.), Fiziki cəzanın aradan qaldırılması: Konstruktiv uşaq nizam-intizamına doğru addımlar. Paris: YUNESKO nəşriyyatı, 2005.




*Daha ətraflı:*
*[https://www.inkluzivtehsil.az/book/16.html](https://www.inkluzivtehsil.az/book/16.html)*



Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

# MÜƏLLİMLƏR ÜÇÜN TÖVSİYƏLƏR



Bülletenimizin budəfəki buraxılışında “Müəllimlər üçün tövsiyələr” rubrikasında Serebral iflicli uşaqlar üçün praktiki təlim tövsiyələri təqdim edirik.

Serebral iflic erkən inkişaf dövründə hərəkətə nəzarət edən beyin hissələrinin zədələnməsi nəticəsində əmələ gəlir. Bir cox halda bu fəsad hamiləlik dövründə əmələ gəlir. Bundan əlavə, bu, doğuş zamanı və kəllə-beyin zədələnməsi (boğulma zamanı oksigen catışmazlığı, beyin iltihabı və ya başın bərk zədələnməsi) nəticəsində yaranır. Ehtimal olunur ki, hər 1000 uşaqdan ikisi uşaq serebral iflic xəstəsidir. Serebral iflicli uşaqlar aşağıdakılardan əziyyət çəkə bilərlər:

- Bədənin bütün və ya qismi hərəkətsizliyi
- Verbal və qeyri-verbal ünsiyyət (üz ifadəsi əsl hissləri tamamilə ifadə edə bilmir – yəni uşaq hirsli va yaxud kədərli olduğu halda təbəssümlü görünə bilər)
- Qeyri-ixtiyari hərəkətlər (qıcolmalar)
- Yemək və icmək
- Əzələ boşluğu və ya gərginliyi
- Balans və koordinasiya
- Bədən vəziyyəti (bədəni istədiyi vəziyyətə yerləşdirmək və onu bu formada saxlamaq)
- Diqqət və konsentrasiya



## *Serebral iflicli uşaqlar üçün praktiki təlim tövsiyələri*



- Əgər uşaq danışa bilirsə, biz ona istədiyi vaxt sual verməsinə imkan yaratmalıyıq və səbirlə cavab və ya şərh verməliyik;
- Biz uşağa hərəkət etmək imkanı verməliyik. Serebral iflicli uşaqların öz hərəkət imkanlarını genişləndirmək üćün əzələ stimulyasiyasına ehtiyacları var.
- Bəzi serebral iflicli uşaqlar tez yorulur. Buna görə məktəb vaxtı onlara dincəlmək üćün şərait yaratmalıyıq. Istirahət üćün məkanın məktəb tərəfindən təmin olunması daha məqsədəuyğundur.
- Əgər məktəbdə kompüter varsa, bu zəif motorika səbəbindən yazmaqda cətinlik cəkən serebral iflicli uşaqlar üćün faydalı ola bilər.

Bületten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə “Regional İnkişaf” İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

Layihə
Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir.





# İNKLÜZİV TƏHSİLDƏ VALİDEYN TƏCRÜBƏSİ

*Ramilə Rasimqızı (Bakı şəhəri)*

Eşitmə və nitq qabiliyyəti zəif olan bir uşağın valideyni kimi ilk növbədə qarşımıza belə bir məqsəd qoyduq: biz çalışmalıyıq ki, qızımız Fatimənin nitqi inkişaf etsin, bizimlə, öz həmyaşıdları ilə sərbəst şəkildə danışa, müstəqil ünsiyyət qura bilsin, əvvəl uşaq bağçasına, bundan sonra ümumtəhsil məktəbinə və daha sonra ali məktəbə gedib mükəmməl təhsil alsın və cəmiyyətə faydalı şəxsiyyət kimi formalaşsın. Bəli, hazırda biz övladımızla birgə bu yolla addım-addım irəliləyirik. Lakin getdiyimiz bu yol heç də asan və rahat deyil. Bununla belə dönüb ötən dövrlərə nəzər saldıqda əminliklə deyə bilərik ki, artıq əvvəlki kimi narahatlıq hissi keçirməyimizə elə də ciddi bir əsas yoxdur. Buna görə də biz qarşımıza qoyduğumuz məqsədə nail olmaq istiqamətində mübarizəmizi böyük inam və əzmlə davam etdiririk. Allaha şükürlər olsun ki, qızım Fatimə ümumtəhsil məktəbində dördüncü sinfə gedir və orta səviyyədə oxuyur. Eyni zamanda o, hazırda inglis dilini də öyrənir. Fatimə məktəbdə yalnız təhsil almır, həm də digər həmyaşdıları ilə ünsiyyədə olmaqla sosiallaşır. Deməkolar ki, onun heç bir kompleksi yoxdur, hamı ilə sərbəst şəkildə fikir mübadiləsi aparmağı və cəmiyyətdə öz yerini tutmağı bacarır. Təbii ki, bütün bu uğurların əldə olunmasında onunla mütəmadi olaraq məşğul olan loqoped, psixoloq və digər mütəxəssislərin böyük rolu olmuşdur. Fatiməni ilk dəfə məktəbə aparanda demək olar ki, heç bir çətinlik yaşamadıq. Çünki, məktəbimizin rəhbəri olduqca humanist, qayğıkeş, səmimi və gözəl bir insandır. Yəqin elə buna görədir ki, o, sosial statusundan asılı olmayaraq bütün uşaqlara, o cümlədən sosial qayğıya ehtiyacı olanlara qarşı çox həssas münasibət bəsləyir. Təqdirəlayiq haldır ki, həmin məktəbin pedaqoji kollektivinin də böyük əksəriyyəti qeyd edilən bütün bu müsbət keyfiyyətlərə malikdirlər. Bütün bunlara baxmayaraq digər məktəblərdə olduğu kimi həmin məktəbin də infrastrukturunun tam müyəssər olmaması və ixtisaslaşmış pedaqoji kadr baxımından çətinliklərinin olması xüsusi təhsil ehtiyacları olan uşaqların təhsilinin keyfiyyətinə mənfi təsir göstərir. Hesab edirəm ki, ümumutəhsil məktəblərində inklüziv təhsilin geniş tətbiqi, eyni zamanda orada müyəssərliyin yaradılması, tədris kurikulumlarının təkmilləşdirilməsi, müasir tələblərə cavab verən yüksək ixtisaslı kadrlarla (korreksion pedaqoq, loqoped, psixoloq, sosial-pedaqoq və s), habelə standartlara uyğun dərsliklərlə, dərs vəsaitləri ilə təmin edilməsi qarşıda duran ən vacib vəzifələrdəndir. Ancaq onu da qeyd etməliyəm ki, bütün bu çatışmazlıqlara baxmayaraq, biz valideyn olaraq övladımızın öz həmyaşıdları ilə birgə ümumtəhsil məktəbində təhsil almasına dəstək olduq və birlikdə bütün maneələri aşdıq.



## ƏLAVƏ MƏLUMAT ALMAQ ÜÇÜN ƏLAQƏ VASİTƏLƏRİ

www.inkluzivtehsil.az | +99412 505 01 50 | info@ie-rt.az | @inkluzivtehsilAzerbaycan | @inkluzivtehsil

Bületen Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.